**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TEYMUR NİZAMİ OĞLU MEHDİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARINDA EKOLOJİ-İQTİSADİ PROSESLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

*İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın*

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi AMEA-nın İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
İqtisad elmləri doktoru, professor **V.T.Novruzov**

**Rəsmi opponentlər:**
İqtisad elmləri doktoru, professor **F.Ə.Məmmədov**

İqtisad üzrə fəlsəfə doktoru, dosent **Ə.M.Əliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu

Dissertasiyanın müdafiəsi "24_"__05__2013-cü il saat____ AMEA-nın

İqtisadiyyat İnstitutu nəzdində FD.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31, AMEA İqtisadiyyat İnstitutu, II mərtəbə

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Aftoreferat "___"________2013-cü ildə göndərilmişdir.

**İxtisaslaşdırılmış Dissertasiya**
**Şurasının elmi katibi,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent** **G.S.Hacıyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Həyata keçirilən iqtisadi islahatların uzunmüddətli sosial və ekoloji nəticələrinin nəzərə alınması davamlı inkişafın əsasını təşkil edir. Eyni zamanda ictimai inkişafın ətraf mühitin vəziyyətindən asılı olması bütün hallarda iqtisadi və ekoloji prioritetlərin uzlaşdırılmasını tələb edir. Məhz davamlı inkişaf şəraitində cəmiyyət və ətraf mühit, ekologiya və iqtisadiyyat, texnika və təbiət arasında qarşılıqlı münasibətin hormoniyasının təmin olunması üçün zəmin yaranır. Bu ideyanın praktiki olaraq həyata keçirilməsi isə sosial-iqtisadi münasibətlərin inkişafına ölkə, region və hətta ayrıca müəssisə səviyyələrində ciddi islahatların aparılmasını tələb edir.

Hazırda bəşəriyyəti düşündürən, narahat edən ən mühüm problemlərdən biri olan ətraf mühitin mühafizəsi Azərbaycan üçün də ən vacib məsələlərdəndir. Belə ki, ölkədə ekologiyaya dair 25-dən çox qanun qəbul olunmuş, ətraf mühit və təbiətdən istifadə ilə bağlı Azərbaycan 20-dən çox beynəlxalq konvensiyaya və razılaşmaya qoşulmuşdur. .

Son dövrdə öıkə rəhbərliyinin uğurla həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində bir sıra Dövlət Proqramları qəbul edilmiş və həyata keçirilmişdir ki, onlardan "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram (2003- 2010-cu illər)", "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram (2003-2008-ci illər)", "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" və s qeyd etmək olar. Nəticədə ölkədə ekoloji durum xeyli yaxşılaşmış, atmosferin, suyun və torpaqların çirklənməsinin qarşısının alınmasında meşə və qoruq ərazilərinin genişləndirilməsində nəzərə çarpacaq irəliləyişlər əldə edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, ölkədə formalaşan güclü neft sektoru ilə bərabər tarazlı iqtisadiyyatın qurulması və qeyri-neft sektorunun dinamik inkişaf etdirilməsi məqsədi ilə, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008, 2009-2013-cü illər) Dövlət Proqramı"na əsasən regionlarda müxtəlif sənaye müəssisələri istifadəyə verilmiş, mövcud müəssisələrin istehsal gücü artırılmışdır ki, bu da regionlarda ətraf mühitin qorunması üçün tədbirlər görülməsini qaçılmaz etmişdir.

Əsas hədəf- ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaq üçün “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasına yönəldilməli, ətraf mühitin mühafizəsinə dair qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, səmərəli monitorinq və nəzarət mexanizmlərinin yaradılması, iqtisadiyyatın bütün sahələrinin inkişafına nail olmaq məqsədi ilə bu problemin ön plana keçməsi və daim diqqətdə olması vacib şərtlərdən biri hesab olunur.

Məhz bu günlər iqtisadi və ekoloji problemlərin daha sıx münasibətlərinin yaranması ilə bağlı təbiəti mühafizə tədbirlərinə sərf olunan xərclər istehsal xərclərinin daha da artımına səbəb olaraq, istehsal olunan məhsulun maya dəyərinin aşağı salınmasına imkan vermir. Bu səbəbdən də istehsalın ekoiqtisadi səmərəliliyinə nail olmaq üçün təbiətə təsirin yol verilən hədləri daxilində ətraf mühiti mühafizə məsrəflərinin optimallaşdırılması daha da aktuallaşır.

**Problemin öyrənilmə səviyyəsi.** İqtisadiyyat ilə ekologiyanın qarşılıqlı münasibəti, davamlı eko-iqtisadi inkişafın istehsala tətbiqi məsələləri xarici alimlərdən Akimov T.A., Balaşka O.F., Qluxov B.B., Lisiçkina T.B. və s. əsərlərində öz əksini tapmışdır. Vıbars A.D., Federenko O.V., Korolyov S.V. və başqalarının əsərlərində təbiətdən istifadə olunmasının rasional yolları təhlil olunmuş, istehsalın ekoloji effektivliyinin, təbiəti mühafizə tədbirlərinin iqtisadi səmərəsinin qiymətləndirilməsi şərh olunmuşdur. Respublikada bu problem A.A.Nadirov, Ş.M.Muradov, T.N. Əliyev, N.Ə. Nəbiyev, Ə.X. Nuriyev, İ.H.Alıyev, R.P.Sultanova, F.Ə. Məmmədov və başqa alimlərin əsərlərində öz əksini tapmışdır.

Lakin mövcud olan tədqiqatlarda hazırda davamlı inkişaf konsepsiyasının bir sıra nəzəri-metodoloji məsələləri həll olunmamışdır. Müəyyən iqtisadi qərarların qəbul olunmasında ekoloji və iqtisadi amillərin inteqrasiyasına nail olunmaması, həyata keçirilən layihələrdə iqtisadçılar tərəfindən ekoloji fəsadların təsirinin düzgün qiymətləndirilməməsi, ekoloqların isə təbiəti mühafizə məsələlərində iqtisadi amili nəzərə almaması problemin yeni tələblər baxımından işlənilməsini zəruri etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi davamlı iqtisadi inkişaf şəraitində regionlarda ekoloji-iqtisadi proseslərin nəzəri əsaslarının öyrənilməsi, mövcud vəziyyətinin qiymətləndirilməsi əsasında onun inkişaf istiqamətləri üzrə təklif və tövsiyyələrin hazırlanmasından ibarətdir.

Bu məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və həll edilmişdir:

- Ekoloji-iqtisadi proseslərin nəzəri əsaslarının öyrənilməsi;

- Regionda təbiətdən istifadənin ekoloji-iqtisadi səmərəsini artırmaq üçün əsas istiqamətlərin qiymətləndirilməsinin metodoloji prinsiplərinin tədqiqi;
- Təbiəti mühafizə fəaliyyətinin idarə olunma sisteminin əsas struktur-funksional elementlərinin təyin edilməsi;
- Ətraf mühitin mühafizəsinin idarəolunma mexanizmlərinin araşdırılması və bu fəaliyyətin ekoloji-iqtisadi təhlili metodikasının hazırlanması;
- Müəssisənin təsərrüfat fəaliyyətinin ekoloji-iqtisadi təhlili metodikasının hazırlanması;
- Təbiəti mühafizə məsrəflərinin miqdarına və effektivliyinə təsir edən əsas amillərin müəyyənləşdirilməsi və qruplaşdırılması;
- Texnogen təsirin sosial-iqtisadi fəsadlarını nəzərə almaqla istehsalın effektivliyinin artırılması yollarının müəyyənləşdirilməsi;
- Regionun inzibati-ərazi vahidinin davamlı inkişafını qiymətləndirmək üçün bu inkişafa təsir göstərən amillərin intensivliyinin göstəricilərinə görə əlavə üsulların aşkara çıxarılması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti olaraq Azərbaycan Respublikasının regionlarında ekoloji və iqtisadi proseslər seçilmişdir.

Tədqiqatın predmetini ölkə regionlarında ekoloji-iqtisadi proseslərin qiymətləndirilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** müəssisələrin istehsal fəaliyyətində ekoloji aspektlərin təhlili problemlərinin tədqiqinə həsr olunmuş ölkə və xarici alimlərin nəzəri və praktiki elmi əsərləri, qanunvericilik və normativ–hüquqi aktlar təşkil edir.

Tədqiqatda ənənəvi elmi tədqiqat üsullarından – müqayisəli, quruluşca çoxfaktorlu təhlildən, strateji və praktiki məsələlərin həllində isə məqsədli - proqramlaşma yanaşmalarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası** olaraq Azərbaycan Respublikasının normativ sənədləri və qanunverici aktlarından, statistik göstəricilərdən, internet saytlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** .aşağıdakılardan ibarətdir:
- Regionun ekoloji-iqtisadi proseslərinin inkişafının nəzəri-metodoloji əsasları öyrənilmişdir.
- Ərazilərin nisbi stabillik dərəcəsini təyin edən amillərin intensivliyinə görə sosial, iqtisadi və ekoloji şəraitlərin təyin olunma metodikası təklif olunmuşdur.

- Müəssisələrin ətraf mühitə texnogen təsirinin qiymətləndirilməsi, onu yaradan amillərin aşkara çıxarılması və sistemləşdirilməsi, ekoloji xərclərin təyin edilməsi, müəssisələrin ekoloji effektivliyinin müəyyən edilməsi ilə ekoloji-iqtisadi təhlilin aparılması metodikası hazırlanmışdır.

- Müəssisənin fəaliyyətinin ekoloji-iqtisadi sistem olaraq təhlil edilməsi ilə istehsalın ekoloji effektivliyinə təsir edən amillər sistemləşdirilmişdir.

- Konkret ərazidə texnogen proseslərin baş vermə əlamətlərinin aşkara çıxarılması əsasında mənfi çalarların neytrallaşdırılması istiqamətində uçot mexanizmi təklif olunmuşdur.

- Müəssisənin iqtisadi effektivliyinin qiymətləndirilməsinə imkan verən, təbiəti mühafizə məsrəflərinin azaldılmasını və iqtisadi zərərin aradan qaldırılmasını özündə birləşdirən iqtisadi göstəricilər və təbii sərvətlərin qorunmasının ekoloji göstəricilər sistemi müəyyən olunmuşdur.

- Regionlarda ekoloji-iqtisadi proseslərin yaxşılaşdırılması istiqamətində təklif və tövsiyyələr işlənib hazırlanmışdır.

**İşin praktiki əhəmiyyəti** aşağıdakılarla şərtlənir:

1) Dissertasiyada formalaşdırılan nəzəri müddəalara əsaslanaraq sənaye müəssisələrində təbiəti mühafizə fəaliyyətinin idarə olunma sisteminin yaradılması üçün praktiki tövsiyyələr verilmişdir.

2) Müəssisələrdə tətbiq olunan ekoloji-iqtisadi təhlil istehsalın ekoloji effektivliyini yüksəltməyə yönələn əsaslandırılmış idarəetmə qərarlarının qəbul edilməsi üçün analitik informasiya hazırlanmasına zəmin yaradır.

**İsin aprobasiyası və nəticələrin tətbiqi.**Dissertasiyanın ayrı-ayrı müddəaları, təklif və tövsiyyələri 2004-2011-ci illərdə keçirilmiş Beynəlxalq və Respublika elmi-praktik konfranslarda, eləcə də AMEA-nın aspirant və gənc mütəxəssislərinin elmi konfransında məruzə edilmiş və cap olunmuşdur. Müəllif 4 fevral 2008-ci il tarixində AR Gənclər və İdman Nazirliyi tərəfindən 2007-ci ildə elm sahəsində nailiyyətlərə görə “Dövlət Gənclər Mükafatı” ilə təltif edilmişdır. 2007-ci ildə ABŞ-da “Şəhərin planlaşdırılması” mövzusunda keçirilən dəyirmi masalarda və 2010-cu ildə Çexiya Respublıkasında keçirilən “Strateji-ekoloji qiymətləndirmə” layihəsi çərçivəsində təcrübə mübadiləsində iştirak etmişdir. Tədqiqat işinin nəticələrinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin istehsalat müəssisələrində tətbiqinin mümkünlüyü haqqında arayış (№13/562 AP) alınmışdır.

**Məqalələrin nəşri.** Dissertasiyanın mövzusuna aid 15 elmi əsər, o cümlədən 8 məqalə (ondan üçü Rusiya Federasiyasında) və 7 elmi məruzə materialı nəşr olunmuşdur.

**İşin həcmi və strukturu.** Dissertasiya işi giriş, üç fəsil, əsas nəticə və istifadə olunmuş 202 adda ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsədi, predmeti, obyekti və vəzifələri müəyyən edilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Tədqiqat işinin **"Ekoloji-iqtisadi proseslərin inkişafının nəzəri-metodoloji əsasları"** adlanan **I fəslində** regional ekoloji-iqtisadi tədqiqatlara müasir elmi baxışlar şərh edilmiş, sosial-iqtisadi inkişaf istiqamətinin seçilməsinə metodoloji yanaşma təhlil olunmuş, müəssisələrdə təbiəti mühafizə fəaliyyətinin təşkili və idarə olunması metodları araşdırılmışdır.

İşdə elmi tədqiqatlarla praktiki nəticələrin müqayisəli təhlili verilmiş, onlar arasında zəif və "şübhəli" məqamlar, konkret fəaliyyətlərin doğru və ya səhv olması aşkara çıxarılmışdır. Qeyd etmək lazımdır ki, regionşünaslıq sistemli yanaşmanın ayrıca bir forması olmaqla region kimi böyük bir sistemin tədqiqını öz üzərinə götürür.

Keçən əsrin 30-40-cı illərində hələ "sistemli yanaşma" təşəkkül tapmasa da, V.İ.Vernadskinin tədqiqatlarında onun xüsusiyyətləri özünü göstərmişdir. Təbiət cisimlərinin bütövlükdə öyrənilməsi sintetik baxımdan müxtəlif elmlərin sərhədlərinin bir-birinə qovuşması ilə mümkündür.

XX əsrin ortalarında sistemli yanaşmanın inkişafında keyfiyyət "sıçrayışı" baş verdi. Ümumi sistem nəzəriyyəsi adlı elm sahəsi formalaşmağa və sürətli inkişafa başladı. "Ümumi sistem nəzəriyyəsi"nin, yəni mürəkkəb sistemlər haqda ideya və fikirlərin ümumıləşdirilməsi elm sahəsinin yaranması, konkret elmlərin pərakəndə nəticələrinə reaksiya kimi təqdim oluna bilər. Sonrakı illərdə onillikdə paradiqmanın dəyişməsi, biosfera ilə insanın əlaqəsinin sosial-ekoloji-iqtisadi problemlərinin birgə dərk edilməsi kimi yeni düşüncə tərzi əmələ gəlmişdir. Yeni düşüncə tərzinə keçid N.F.Reymers tərəfindən nəzərdən keçirilmişdir. Sosial- ekoloji sistemin inkişafının təhlilinin yeni metodologiyasının əsas nəticəsinə ənənəvi baxış onunla əlaqədardır ki, bəşəriyyətin biosfer ilə qarşılıqlı təsirinin tənzimlənməməsinə mütləq son qoyulmalıdır. Bunun əvəzinə P.Q.Oldakın təbirincə, bütün planeti çuğlayan "planlı təsərrüfat" gəlməli, sosial-ekoloji sistemin məqsədyönlü idarəolunması, inkişafın üçölçülü - iqtisadi, sosial və ekoloji təhlil əsasında tənzimlənməsi bərqərar olunmalı-

dır. Belə idarəetmə optimal variantda yalnız sintez əsasında, yəni, sosial-iqtisadi və ekoloji planlaşdırmanın özündə birləşdirilməsi ilə reallaşa bilər.

Görkəmli amerika ekoloqu B.Kommonerə görə ətraf mühitdə böhran, yeni növ yaşayış tərzinə keçid dəbi və ya nəzər diqqəti əsas siyasi, sosial və iqtisadi ziddiyyətlərdən (konfliktlərdən) yayındırmaq vasitəsi deyildir. Əksinə, ətraf mühitin qorunma problemləri bütün dünyanı narahat edən problemlərin mahiyyətinə nüfuz etməyə kömək göstərir. Bu məsələdə ətraf mühitin qorunması üzrə mütəxəssisin marağı bir sıra digər elm sahələrini əhatə etməklə iqtisadi sferaya qədər gəlib çıxır . B.Kommonerin fikrincə, situasiyanın özü ekoloq və iqtisadçını özlərinə uyğun sərhədləri aşaraq bir-birilə qarışmağa sövq edir. Lakin bu ekoloqa çevrilərək iqtisadçı olmağı, iqtisadçıya isə ətraf mühitə dair biliklərinə yenidən baxmağı tövsiyyə etmir. Hər bir ixtisasçı digərinin biliklərinə arxalanaraq regionun ekoloji problemlərini, sosial və iqtisadi proseslərlə əlaqələndirmə yollarını axtarmalıdır.

Sistemli yanaşmanın başlıca məsələlərindən biri sistemin strukturunun, yəni onun əsas hissələrinin və onlar arasında əlaqə üsullarının məcmusunun öyrənilməsidir. Bu halda hər bir əlahiddə sistemin özünəməxsusluğunu təyin edən əsas hissələri və əlaqələri təyin olunmalı, nəzərə alınmalıdır ki, sistem sadəcə birlik deyil, ziddiyyətlərin birliyidir.

Bu fəsildə xüsusilə qeyd olunur ki, ərazidə məhsuldar qüvvələrin yerləşdirilməsi və inkişafı əsasən torpaqdan istifadə problemlərinin həlli ilə əlaqədardır. Ərazinin sosial-iqtisadi qiymətləndirilməsi isə dərin sosial, iqtisadi və ekoloji təhlillər aparmaqla müxtəlif səviyyəli ərazi vahidlərində əhalinin, təbiətin və təsərrüfatın qarşılıqlı münasibətinin obyektiv araşdırılması ilə həyata keçirilməlidir. Ərazilərin sosial-iqtisadi və ekoloji əlamətlərə görə fərqləndirilməsi onların müqayisəsi ilə yerinə yetirilir. Müqayisəli yanaşma ümummilli yanaşma olaraq bir sıra ümumelmi metod və prosedurların əsasında formalaşır. Bu üsul ərazilərin təsnifatı, ümumiləşdirmə, qiymətləndirmə məsələlərində öz rolunu oynaya bilər.

Dissertasiyada xüsusi diqqət yetirilən məsələlərdən biri də obyektlərin yerləşdirilməsində istifadə olunan kriteriyalarda ekoloji, sosial və iqtisadi amillərin məcmusunun tam əks etdirilməsidir. Ərazinin davamlı inkişafını təmin edən müxtəlif xarakterli proseslər hər hansı universal kriteriyanı formalaşdırmağa imkan yaratmır. Baxılan hadisələrin spesifik xüsusiyyətlərinə görə kriteriyalar sistemi fərdi olmalı və onların ümumi nisbətini yalnız nəzərə alınan amillərin və variantların seçilmə səviyyəsindən asılı olaraq vermək mümkündür.

Qeyd etmək lazımdır ki, şərh olunan metodoloji yanaşma inkişaf və təkmilləşdirilmə üçün qeyri-məhdud imkanlara malikdir, sosial-iqtisadi və ekoloji amillərin mükəmməl hesaba alınması, onun geniş tətbiqolunma imkanlarını təyin edir.

Müasir dövrün əsas problemlərindən biri ətraf mühitin keyfiyyətinə insan fəaliyyətinin mənfi təsirinin aradan qaldırılmasıdır. Təhlükəli ekoloji şərait ölkənin sənaye cəhətdən inkişaf etmiş regionlarına, ilk növbədə Abşeron yarımadasına və Aran iqtisadi rayonuna aid edilə bilər. Yüksək dərəcədə çirklənməyə məruz qalan bu regionların ekoloji cəhətdən əlverişli olmaması burada bir sıra sənaye sahələrinin – ilk növbədə neftçıxarma, neftayırma və neft emalı müəssisələrinin, emaletmə və enerji istehsalı obyektlərinin toplanması ilə əlaqədardır.

Sənaye tullantılarının əmələ gəlməsi, basdırılması, yenidən işlənərək zərərsizləşdirilməsi və təkrar istehsalı ilə əlaqədar ciddi problemlər hələ də qalmaqdadır. Respublikada son zamanlara qədər təkrar emal müəssisələri yox dərəcəsində idi.

Aparılan tədqiqat göstərir ki, 2011-ci ildə ölkənin atmosfer havasına atılan çirkləndirici maddələr 224000 ton təşkil etmişdir ki, bu da əsasən mədənçıxarma sənayesi üzrə 104,9 min ton, emal sənayesi 41,8 min ton, elektrik enerjisi, qas və suyun istehsalı 37,2 min ton, nəqliyyat, anbar təsərrüfatı və rabitə 35,5 min ton olmuşdur(bax cədvəl 1-ə). Bu da keçmiş illərlə müqayisədə müvafiq ildə yüksək olmuşdur. Qeyd etmək lazımdır ki, ölkədə son dövrdə istehsalın inkişaf tempinin sürətlə artması öz növbəsində ətraf mühitin keyfiyyətinin kəskin pisləşməsinə və ekoloji problemlərin yaranmasına təkan verir. Hazırda ekspert qiymətləndirməsinə görə Azərbaycan Respublikasında ətraf mühitin çirklənməsi nəticəsində ziyan milli gəlirin 23%-ni təşkil edir.

Onu da vurğulamaq lazımdır ki, sosial-iqtisadi ziyanın tərkibini əsasən sağlamlıq üçün çəkilən xərclər təşkil edir. Dünya səhiyyə təşkilatının məlumatlarına görə insan sağlamlığının 25-30%-i ətraf mühitin vəziyyəti ilə əlaqədardır ki, bu da əlverişsiz hava mühiti, su hövzələrinin çirklənməsi, torpağın zəhərlənməsi ilə bağlıdır.

Təhlil nəticəsində müəyyən edilmişdir ki, təbiəti mühafizə fəaliyyətinin idarəolunmasında bir sıra nöqsanlara yol verilmişdir ki, bu da onun həllində çətinliklər yaratmışdır.

**Cədvəl 1**

***2011-ci ildə iqtisadi fəaliyyət növləri və inqredientlər üzrə stasionar mənbələrdən Azərbaycan Respublikasında atmosfer havasına atılan çirkləndirici maddələr (min ton)***

| İqtisadi və inzibati rayonlar | Atmosferə atılan çirkləndirici | O cümlədən: | | | | |
|---|---|---|---|---|---|---|
| | | Bərk maddələr | Qazaoxşar və maye maddələr | onlardan | | |
| | | | | Kükürd anhidridi | Karbon dioksid | Azot oksidləri |
| **Cəmi** | 224 | 17,91 | 206,1 | 2,7 | 33,5 | 21,3 |
| **O cümlədən:** | - | - | - | - | - | - |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | 0,2 | 0,1 | 0,06 | 0,004 | 0,04 | 0,009 |
| **Mədənçıxarma sənayesi** | 104,9 | 4,0 | 100,9 | 0,4 | 8,9 | 7,3 |
| **Emal sənayesi** | 41,8 | 11,59 | 29,9 | 1,3 | 2,2 | 3,3 |
| **Elektrik enerjisi, qaz və suyun istehsalı** | 37,2 | 1,2 | 35,9 | 0,6 | 19,7 | 9,8 |
| **Su təhcizatı, çirkli sularlın və tullantıların təmizlənməsi** | 0,8 | 0,008 | 0,8 | 0,002 | 0,5 | 0,07 |
| **Tikinti** | 1,9 | 0,6 | 1,3 | 0,1 | 0,58 | 0,1 |
| **Topdan və pərakəndə ticarət, nəqliyyat vasitələrinin təmiri** | 0,7 | 0,005 | 0,7 | 0,003 | 0,08 | 0,009 |
| **Nəqliyyat, anbar təsərrüfatı və rabitə** | 35,5 | 0,001 | 35,5 | 0,002 | 1,0 | 0,3 |
| **Digər iqtisadi fəaliyyət növləri** | 1,0 | 0,008 | 1,0 | 0,3 | 0,6 | 0,4 |

***Qeyd:*** cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

Hazırda müəssisələrdə təbiəti mühafizə fəaliyyətinə təsərrüfatçılığın təcrid olunmuş bir növü kimi baxaraq ənənəvi münasibət qorunub saxlanmaqdadır.

Təbiəti mühafizə fəaliyyətinin təşkilinin təhlili və sənaye müəssisələrində mövcud olan idarəçilik formaları göstərir ki, icrası məcburi olan tələbatların və normativ sənədlər sisteminin tətbiqində inzibati idarəçilik formaları hələ də üstünlük təşkil edir. Belə ki, istifadə olunan normativ sənədlərin iqtisadi əsaslandırılmasının yerinə yetirilməməsi. bir sıra fundamental sənədlər toplusuna isə ekoloji normativlərin təyin olunmaması ciddi nöqsanların yaranmasına səbəb olur.

**İşin "Azərbaycan Respublikasının regionlarında ekoloji-iqtisadi proseslərin təhlili"** adlanan **II fəslində** respublika regionlarının sosial-iqtisadi və ekoloji inkişafının müasir vəziyyəti təhlil olunmuş, müəssisələrin səmərəli fəaliyyət göstərməsi məqsədi ilə təsərrüfat fəaliyyətinin ekoloji-iqtisadi baxımdan öyrənilməsi həyata keçirilmiş, regionlarda ekoloji-iqtisadi proseslərin qiymətləndirilməsi və planlaşdırılması tədqiq edilmişdir.

Aparılan təhlil göstərir ki, bu gün Azərbaycanın bütün regionlarında ətraf mühitə yüksək ekoloji yük müşahidə olunmaqdadır.

Hazırda ekoloji vəziyyətə torpaqların və ətraf mühitin sənaye tullantıları və neft məhsulları ilə çirklənməsi böyük zərbələr vurur. Torpağın neft və neft məhsulları ilə çirklənməsi əsasən Abşeron iqtisadi zonasında baş vermişdir. Ümumilikdə isə istənilən xammal mədənlərinə torpağın çirklənməsi və yararsız hala salınması xarakterikdir. Cədvəl 2-dən göründüyü kimi Azərbaycanın iqtisadi rayonları üzrə atmosferin çirkləndirilmə səviyyəsi öz müxtəlifliyi ilə səciyyələnir və hər bir regionunda ciddi ekoloji problemlər mövcuddur və ya gözlənilir. Əsasən ekoloji gərginlik Bakı şəhəri, Naxçıvan, Abşeron, Gəncə-Qazax, Quba- Xaçmaz, Aran, Lənkəran iqtisadi rayonları üzrə müşahidə olunur.

Bizim fikrimizcə, ekologiyanın prinsipial problemlərini həll etmədən belə yüksək ekoloji yükə malik milli iqtisadiyyatın davamlı inkişafı mümkün deyildir.

Ölkənin hazırda üzləşdiyi ekoloji problemlərin əksəriyyəti iqtisadi inkişaf proseslərində ətraf mühitin davamlılığı məsələlərinin nəzərə alınmaması ilə bağlıdır. Respublika ərazisinin xeyli hissəsinin işğal altında olması və insanların öz daimi yaşayış yerlərindən didərgin düşməsi nəticəsində əkin üçün yararlı torpaqların, suvarma və tullantıların idarə edilməsi sistemlərinin həddən artıq yüklənməsi ətraf mühitin mühafizəsi problemlərini daha da ağırlaşdırmışdır.

*Cədvəl 2*

***Azərbaycanın iqtisadi rayonları üzrə 2011-ci ildə stasionar mənbələrdən atmosferə atılan çirklənmiş materialların tullantıları, (ton)***

| İqtisadi və inzibati rayonlar | Atmosferə atılan çirkləndirici maddələr - cəmi | O cümlədən: | | | | |
|---|---|---|---|---|---|---|
| | | Bərk maddələr | Qazaoxşar və maye maddələr | onlardan | | |
| | | | | Kükürd anhidridi | Karbon dioksid | Azot oksidləri |
| **Azərbaycan Respublikası** | 224039,0 | 17965,1 | 206073,9 | 2742,4 | 33535,6 | 21256,9 |
| **Bakı şəhəri** | 160205,1 | 14389,2 | 145815,9 | 1632,7 | 10904,5 | 9137,5 |
| **Abşeron iqtisadi rayonu** | 4725,7 | 48,6 | 4677,0 | 158,5 | 887,0 | 2074,6 |
| **Gəncə-Qazax iqtisadi rayonu** | 2712,3 | 1137,0 | 1575,3 | 169,3 | 237,2 | 216,0 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | 557,5 | 1,5 | 556,0 | 54,4 | 285,8 | 151,1 |
| **Lənkaran iqtisadi rayonu** | 2049,4 | 0,9 | 2048,5 | 5,3 | 445,8 | 156,0 |
| **Quba –Xaçmaz iqtisadi rayonu** | 2700,3 | 1,5 | 2698,8 | 13,0 | 1208,0 | 290,4 |
| **Aran iqtisadi rayonu** | 23363,6 | 1170,0 | 22193,6 | 672,7 | 893,3 | 7036,2 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu** | 228,0 | 0,5 | 227,5 | 5,0 | 5,5 | 5,6 |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu** | 9,4 | 0,2 | 9,2 | 2,7 | 3,0 | 2,8 |
| **Dağlıq Şirvan iqtisadi rayonu** | 46,7 | 0,3 | 46,3 | 7,5 | 12,8 | 5,5 |
| **Naxçıvan iqtisadi rayonu** | 27441,1 | 1215,4 | 26225,7 | 21,2 | 18652,8 | 2181,3 |

***Qeyd:*** cədvəl müəllif tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

Torpaq örtüyünün korlanması nəticəsində onun eroziyası və şoranlaşması kənd təsərrüfatı istehsalına və əhalinin torpaqdan gəlir vasitəsi kimi istifadə imkanlarına mənfi təsirini göstərmişdir. Ölkə ərazisinin 59,8%-i, yəni 671,2 min hektarı orta və şiddətli eroziyaya məruz qalmışdır. Hazırda Gəncə-Qazax və Şəki-Zaqatala bölgələri suvarma ilə bağlı eroziyadan əziyyət çəkir.

Mövcud olan belə ciddi problemlərin aradan qaldırılması məqsədi ilə, regional səviyyədə yanaşmada ekoloji-iqtisadi rayonlaşdırma problemi xüsusi önəm kəsb edir. Belə ki, ərazi sistemlərinin ekoloji differensasiyasının nəzərə alınması müxtəlif ərazilərin fərqli ekoloji duruma malik olması ilə bağlıdır. Eyni zamanda texnogen təsirin müxtəlifliyinin nəzərə alınması, həmin ərazilərdə sosial-iqtisadi göstəricilərin xüsusiyyətlərinin və funksiyalarının öyrənilməsini məqsədəuyğun edir. Beləliklə, ekoloji-iqtisadi rayonlaşdırılmanın əsas prinsipi texnogen proseslərin və ekoloji-iqtisadi hadisələrin eyni intensivliyinə malik olduğu ərazilərin aşkar olunmasıdır. Rayonlaşmada inzibati bölgüyə riayət edilməsi məcburi deyil, lakin o, ətraf mühitin mühafizə problemləri və ona olan təsirin xüsusiyyətləri ilə yaxın olan bir sıra ərazilər toplusunu özündə birləşdirə bilər.

Ekoloji-iqtisadi rayonlaşdırılmanın əsas məqsədi ekoloji-iqtisadi proseslərin idarə edilməsini optimallaşdırmaq, regionun ərazilərinin ekoloji problemlərinin həllinin vaciblik dərəcəsinə və ya ekoloji tədbirlərin investisiyalaşmasında növbələşməsinə görə sıralanmasını, ən əsası isə, fikrimizcə, ekoloji cəhətdən təhlükəsiz inkişafını təmin etməkdir.

Ərazinin davamlı inkişaf konsepsiyası sosial, iqtisadi və ekoloji problemlərin həlli ilə əlaqədar investisiyalaşdırma proseslərinin inkişafını stimullaşdıran şərtləri proqramlaşdırmalıdır. Bütün zəruri amillərin yerli şəraitə uyğun olaraq balanslaşdırılmış şəkildə reallığa çevrilməsi üçün investisiya prosesinin güzəşt və üstünlük mexanizmləri vasitəsi ilə reallaşma yolları proqramlarla müəyyən edilməlidir. Bu aspektlər ərazinin problem vəziyyətinin təhlilindən aydın olur və ərazidə mövcud sosial-iqtisadi struktur ilə ənənəvi inkişaf tendensiyaları əsasında qurulan imkanlar arasında ziddiyyətdə özünü biruzə verir. Başqa sözlə, inkişaf məqsədləri ətalətli inkişaf yolları ilə əldə oluna bilməz və onun daxili struktur planlaşdırılmasının yenidənqurulması tələb olunur. Lakin müxtəlif iqtisadi, ekoloji və s. sahələrin deyil, ümumilikdə ərazinin davamlı inkişafının əsas məqsədi ondadır ki, real məhdudiyyətləri və obyektiv prosesləri nəzərə almaqla iqtisadi, sosial və təbiətdən istifadə rifahlarının maksimum həddi təmin olunsun, yəni ərazi və onun əhalisi üçün istənilən disbalansdan sığorta olunma şəraiti yaradılsın.

Regionun inkişaf xüsusiyyətlərini nəzərə alaraq, qarşıya çıxan problemlər məcmusunu üç qrupa ayırmaq olar:

- ekoloji (təbiət sistemlərinin dayanıqlığının pozulması)
- iqtisadi (sənaye miqyasında artım ehtiyatlarının tükənməsi)
- sosial (sosial proqramların həyata keçilrilməsi üçün məsrəflərin artması)

Hər qrupun ayrı-ayrılıqda mövcud problemlərinə baxmaqla *əsas məqsəd* formalaşdırılır və onun həlli yekun nəticəni təyin edir.

*Əsas ekoloji məqsəd* – istehsal prosesində təbiət komplekslərinə göstərilən təsirin miqdarı elə həddə olmalıdır ki, onların özlərini bərpaetmə potensialı pozulmasın.

*Əsas iqtisadi məqsəd* – istehsalın səmərəliliyinin yüksəldilməsi (ərazidə istehsal olunan məhsulun keyfiyyətini yüksəltməklə onun xammal tutumunun azaldılması).

*Əsas sosial məqsəd* – uyğun ərazinin əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi.

Əsas məqsədlər arasında əlaqə aşağıdakı kimi təsbit oluna bilər: təbiətdən istifadənin normaları hüdudunda istehsalın səmərəlilik səviyyəsi elə dərəcədə olmalıdır ki, bütün sosial tələblərin reallaşması mümkün olsun.

Əsas məqsədlərin belə sintezi "məqsədlər ağacında" I mərhələ üçün üç proqramı tərtib etməyə və onların hər birindən doğan II mərhələ proqramlarını aydınlaşdırmağa imkan yaradır.

*I proqram – təbiət sistemlərinin dayanıqlığının qorunmasını özündə cəmləşdirir.*

"Məqsədlər ağacında" bu proqram bir neçə II ranq proqramlarına bölünür: məsələn I-1 – ekoloji biliklərin formalaşmasının təmini, I-2 - ərazinin ekoloji xəritələşdirilməsi və s.

*II proqram – istehsalın səmərəliliyinin yüksəlməsidir.*

Bu proqram da "məqsədlər ağacında" bir neçə II ranq proqramını təmin edir. Məs, II-1 – sənayenin strukturca yenidənqurulması; II-2 – bazar münasibətlərinin dərinləşdirilməsi və s.

*III proqram – sosial inkişafın təmin edilməsini əks etdirir.*

"Məqsədlər ağacında" bu proqram aşağıdakı II ranq proqramlarına ayrılır: III-1 – demoqrafik proseslərin idarəolunması, III-2 - əhalinin sağlamlığının qorunması və s.

Bizim fikrimizcə, ərazinin diaqnostikası mövcud iqtisadi (istehsal), sosial, maliyyə-büdcə və ekoloji göstəricilərin qiymətləndirilməsi əsasında aparıla bilər və burada üç istiqamət seçilir:

- ərazinin inkişaf perspektivlərinin qiymətləndirilməsi;
- regionun sosial-iqtisadi və ekoloji inkişafında ərazinin rolunun qiymətləndirilməsi;
- ərazinin hazırki durumunun qiymətləndirilməsi.

Bazar iqtisadiyyatı şəraitində müəssisələrin iqtisadi müstəqillik əldə etməsi onların təsərrüfat fəaliyyətində müxtəlif metodların istifadəsinin vacibliyini ortaya çıxarır.

Bu baxımdan müəssisələrin iqtisadi fəaliyyətində texniki-iqtisadi, sosial-iqtisadi, iqtisadi-hüquqi aspektlərinin qiymətləndirilməsi vacib olaraq, ekoloji xərclərin hesablanmasını zəruri edir.

Ekoloji-iqtisadi təhlil daxili və xarici informasiyalar kompleksinə əsaslanır. Daxili informasiyalara müəyyən zaman kəsiyində (ay, rüb, il) əldə edilən iqtisadi göstəriciləri, məsələn, təbiəti mühafizə fondlarının rekonstruksiyasına sərf olunan vəsaiti, xarici informasiyalara isə ətraf təbii mühitin çirkləndirilməsinə görə vergi normasının dəyişməsini göstərmək olar.

Ekoloji-iqtisadi təhlilin ilkin mərhələsində aşağıdakılar yerinə yetirilməlidir:

1) müəssisənin texnogen təsir mənbəyi olaraq xarakterizə edilməsi;
2) müəssisənin fəaliyyətinin ekoloji normativlərə uyğun olması dərəcəsinin müəyyənləşdirilməsi;
3) təbiəti mühafizə fəaliyyətinin texniki-təşkili səviyyəsinin təhlil edilməsi.

Vurğulamaq lazımdır ki, ekoloji-iqtisadi təhlilin əsas vəzifələrindən biri də müəssisənin fəaliyyətinin iqtisadi nəticələrinin formalaşmasına təbiəti mühafizə xərclərinin təsirinin təyin olunmasıdır.

Təbiəti mühafizə tədbirlərinə kapital qoyuluşunun maliyyələşməsi mənbələri müəssisənin öz vəsaitləri və kreditlər ola bilər. Təbiəti mühafizə tədbirlərinə sərf olunan resursları qiymətləndirmək üçün nəticələrin pul şəklində xərc-mənfəət mexanizmi və ya layihənin iqtisadi səmərəliliyinin təyini üsulu tətbiq olunur. Burada faktiki yerinə yetirilmiş təbiəti mühafizə tədbirlərinin qiymətləndirilməsi həyata keçirilməlidir. Bu görülən tədbirlərin tam iqtisadi nəticələrinin ümumi dəyəri təyin olunmalı və onlar üçün lazım olan xərclər hesablanmalıdır.

Təbiəti mühafizə tədbirlərinin tam iqtisadi nəticələri, ətraf mühitin çirklənməsinin iqtisadi ziyanı ilə təbiəti mühafizə tədbirlərinin keçirilməsi səbəbindən istehsal nəticələrinin yaxşılaşdırılmasından əldə olunan illik gəlirin cəmi kimi təyin olunur.

Qeyd etmək lazımdır ki, təhlil və qiymətləndirmədə, həm qeyri istehsal sferasında, həm də istehsalatda təbiəti mühafizə yönümlü tədbirlərin yerinə yetirilməsi ilə əlaqədar cari xərclər də nəzərə alınmalıdır. Fikrimizcə, hazırlanan proqramlarda birtərəfli sahəvi yanaşma müşahidə olunur ki, bu da onların Ekolojiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tərtib olunması ilə bağlıdır. Bu proqramlarda regionların iqtisadi vəziyyəti və onların inkişaf proqnozları nəzərə alınmır. Tərtib olunmuş proqramlarda əsasən ekoloji problemlərin həllinə yönəldilən iri miqyaslı tədbirlərin həyata keçirilməsi öz əksini tapır.

Regionun ekoloji təhlükəsizlik proqramının tərtıb olunmasından əvvəl bir sıra tədqiqatlar aparılmalı və onların nəticələri proqramdan əvvəlki aşağıdakı sənədlərdə öz əksini tapmalıdır:

- regionun ekoloji-iqtisadi inkişaf proqnozu;
- təbii-texnogen kompleksin (TTK) biznes-ekolayihəsi;
- regionun ərazisində təbiətdən istifadənin sxemi.

İqtisadi inkişafın proqnozlaşdırılması ilə ətraf təbii mühitin vəziyyətinin proqnozlaşdırılması eyni vaxtda həyata keçirilməlidir. Sonuncu isə həlledici ölçüdə təsərrüfat fəaliyyətinin xarakterindən və miqyasından asılı olduğundan, ilk növbədə iqtisadi inkişafın mümkün fəsadlarının proqnozlaşdırılmasına imkan yaradır.

Təbiətdən istifadənin idarə olunmasının iqtisadi mexanizminin əsasını ərazinin prioritetləri və dəyərlərinin konkretləşdirilməsi, yəni onun ekoloji xüsusiyyətlərinin nəzərə alınması təşkil etməlidir.

Dissertasiya işinin **“Azərbaycan Respublikasının regionlarında ekoloji-iqtisadi proseslərin idarə olunmasının səmərəliliyinin artırılması”** adlı III fəslində respublika regionlarında iqtisadi- ekoloji proseslərin yaxşılaşdırılması yolları, iqtisadi rayonların davamlı inkişafında təbiəti mühafizə fəaliyyətinin idarə edilməsi və regional təbiətdən istifadənin ekoloji-iqtisadi səmərəliliyi ilə bağlı nəzəri və praktiki tövsiyyələr öz əksini tapmışdır.

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşamaları və təbii sərvətlərdən xalqın rifahının yaxşılaşması naminə istifadəsi məsələləri müasir cəmiyyətin inkişafında mühüm yer tutur və ölkədə aparılan sosial-iqtisadı islahatların tərkib hissələrindən biridir.

Fikrimizcə, ölkədə enerji təhlükəsizliyi və ekoloji təhlükəsizliyi təmin etmək üçün, ilk növbədə, aşağıdakı mühüm problemləri həll etmək vacibdir.

Yanacaq – enerji kompleksinin (YEK ) fiziki aşınmış və mənəvi köhnəlmiş texnoloji bazasının modernləşdirilməsini həyata keçirmək,

regionlarda və gərgin təbii- geoloji mühitə malik ərazilərdə resurs bazasının təkrar istehsalını təmin etmək.

Ekoloji təhlükəsizlik siyasətinin reallaşdırılmasında aşağıdakı əsas məsələlərin həll olunması tələb olunur:

- ardıcıl olaraq xüsusi təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi, hasil olan qazlardan ayrılan zəhərli maddələrin tutulması və zərərsizləşdirilməsi üçün təbiəti mühafizə obyektlərinin tikilməsi və mövcudların rekonstruksiyası, çirkab sularının təmizlənməsi;
- enerji obyektlərinin tikintisi və istismarı proseslərində təhrif olunan və çirkləndirilən torpaqların rekultivasiya tempinin gücləndirilməsi, istehsalın tullantılarından təkrar istehsal üçün xammal kimi istifadəsi;
- səmt neft qazından səmərəli istifadə olunmasının iqtisadi stimullaşdırılması, onun məşəllərdə yandırılma prosesinə son qoyulması (bu amil səmt qazının işlənməsi və ayrılma prosesinin yerinə yetirilməsi üçün əlverişli iqtisadi şəraitin yaradılmasını tələb edir);
- elektrostansiyalarda və digər sənaye obyektlərində yandırılan mazut yanacağının sərfinin artırılması şəraitində ekoloji cəhətdən təmiz texnologiyaların inkişaf etdirilməsi;
- yandırılan mazutun keyfiyyətinin yaxşılaşdırılması;
- ekoloji xarakteristikaları yaxşılaşdırılmış, avropa standartlarına cavab verən yüksək keyfiyyətli mühərrik yağlarının istehsalını genişləndirməli, çirkləndirici maddələrin ətrafa atılması səviyyəsi və neft məhsulları bazasında normativlərin təkmilləşdirilməsini həyata keçirməli;
- su elektrik stansiyalarının fəaliyyəti nəticəsində yaranan ekoloji zərərin minimuma endirilməsi üçün proqramın hazırlanması;
- texniki vasitələrin və təbiəti mühafizə texnologiyalarının sertifikatlaşdırılması işlərinin təşkili;
- təbiəti mühafizə fəaliyyəti sahəsində təhsilin və ixtisaslı kadr hazırlığının təmin edilməsi.

Respublikada həyata keçirilən ekoloji siyasət ətraf mühitin qorunması, ekoloji təhlükəsizlik və təbii resurslardan səmərəli istifadəni təmin etməlidir. Əks halda ölkədə bütövlükdə, həmçinin onun regionlarında dayanıqlı sosial-iqtisadi tərəqqiyə nail olmaq mümkün deyildir.

Bu səbəbdən ilkin olaraq mərhələlərlə mövcud ekoloji problemlər həll olunmalı və onların fəsadları aradan qaldırılmalıdır:

- ölkənin bütün regionlarında və iqtisadiyyatın bütün sahələrində ekoloji təhlükəsizlik və ətraf mühitin qorunması təmin olunmalı;

- ekoloji standartların və qanunların tətbiqinə nail olmalı;
- bütün yeni təşkilatlarda sosial normaların və normativlərin yerinə yetirilməsi təmin olunmalıdır.

- ekoloji və sosial-iqtisadi proseslərin birgəliyini daha dolğun əks etdirən layihələr stimullaşdırılmalıdır.

İndiki və gələcək nəsillərin rifahı naminə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə etmək üçün, təbiət və cəmiyyətin qarşılıqlı əlaqələrinin, ekoloji-ictimai münasibətləri tənzimləyən hüquqi normaların toplusunun hazırlanması mühüm əhəmiyyət kəsb edir.

Ətraf mühitə mənfi təsir səbəbindən ödəmələrin mövcud sistemində inzibati ödəmələrin səmərəli mexanizmi mövcud deyildir və təbiəti mühafizə tədbirlərinin keçirilməsinin iqtisadi stimullaşdırılmasının təkmilləşdirilməsi tələb olunur.

Təhlil nəticəsində məlum olmuşdur ki, tətbiq olunan ödəniş və iddia məbləğlərinin çox aşağı olması istehsal və xidmət sahələrində fəaliyyət göstərən hüquqi və fiziki şəxsləri ətraf mühitə atılan zərərli maddələrin azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsində maraqlı etmir.

Ödəmələrin miqdarının təyini üçün müasir üsullar bir sıra ixtisasçıların fikrincə, ciddi çatışmazlıqlara malikdir və bu ödəmələrin miqdarının obyektiv təyin olunmasına imkan vermir. Fikrimizcə, ödəmələrin miqdarının təyinatında əsas çatışmazlıqlar aşagıdakılardır:

- cihazlardan və hesablamalardan kombinə olunmuş üsullarla zəhərli maddələrin miqdarını təyin etmək üçün cəhdlər göstərilmir.
- atmosferə atılan zəhərli maddələrin miqdarına kəsilməz nəzarət edən cihazlar quraşdırmaqla zərərli tullantılar istehsal edən müəssisələrə nəzarətin, həmçinin normativ aktların mövcud olmaması səbəbindən zəhərli tullantıların faktiki miqdarının müəyyən edilmiş normativlərdən aşağı səviyyəyə qədər azaldılması stimulları mövcud deyildir.

Ekoloji vəziyyətin yaxşılaşdırılması əsasən təbiətdən istifadə proseslərinin təşkilindən və idarə olunmasından asılıdır.

Müasir şəraitdə müəssisələrin idarəolunması prinsiplərinin yenidən işlənməsi yeni təsərrüfat münasibətlərinə keçidi tələb edərək yeni adekvat idarəetmə sistemi yaradılmasını zəruri edir. Müəssisələrdə təbiəti mühafizə fəaliyyətinin idarəolunma sisteminə bütövlükdə onların idarəolunmasının əsas amili kimi baxılmalıdır.

İdarəedici altsistem (idarəedici subyekt) inzibati hissədən, ekoloji xidmətdən və müəssisənin sahələr üzrə rəhbərlərindən təşkil olunur. İdarəedici obyekt olaraq istehsal, təsərrüfat və idarəetmə sistemlərinin fəaliyyəti

olaraq “insan-istehsal-ətraf təbii mühit” sistemi götürülür. Operativ idarəetmə müəssisənin təsdiq olunmuş plan üzrə fəaliyyətini təmin edir.

Hazırda Azərbaycan Respublikasında davamlı inkişafın təmin edilməsi üçün ekologiya sahəsində mövcud durumun yaxşılaşdırılması məqsədi ilə, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi istiqamətində ciddi tədbirlər görülməkdədir. Bu istiqamətdə 2000-ci ildən indiyədək, dövlət səviyyəsində ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə edilməsinə əsas kapital qoyuluşlarının həcmi artmaqdadır ( bax cədvəl 3-ə).

Cədvəl 3-dən göründüyü kimi, ölkədə ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə edilməsinə 2000-ci illə müqayisədə 2011-ci ildə əsas kapital qoyuluşları 237552,5 min manat artmışdır ki, bu da su ehtiyatlarının mühafizəsində müvafiq il üzrə 189089,8 min manat, torpaqların mühafizəsinə isə 49288,6 min manat təşkil etmişdir.

Ölkə iqtisadiyyatının dinamik inkişafı ekoloji təhlükəsizlik tədbirlərinin görülməsini zəruri edir. İqtisadiyyatın inkişafı daima ətraf mühitin qorunması tədbirləri ilə balanslaşdırılır. Bu səbəbdən də enerjinin səmərəli işlədilməsi siyasəti, israfçılığın aradan qaldırılması tədbirləri ilə əlverişli iqtisadi mühitin yaradılması, bütün mövcud texnoloji proseslərdə ekoloji cəhətdən təhlükəsiz və iqtisadi cəhətdən səmərəli avadanlıqlardan istifadə olunması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası 10 yanvar 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Komissiyasını və 2000-ci ilin iyun ayında isə İqlim Dəyişmələri üzrə Kioto Protokolunu ratifikasiya etmişdir. 1997-ci ildə iqlim dəyişmələri üzrə dövlət komissiyası, 2005-i ildə Kioto Protokolu üzrə milli səlahiyyətli orqan təyin edilmişdir. Hazırda iki lahiyə- Azərbaycan İES bərpası, Sumqayıt İES tikilməsi TİM üzrə qeydiyyatdan keçmişdir: Yeni elektrik stansiyasının tikintisinə qərar verilərkən layihənin «Təmiz İnkişaf Mexanizmi» layihəsi kimi işlənməsi nəzərdə tutulur.

Enerji istehsalı prosesinin ətraf mühitə təsiri stansiyalarda istifadə edilən yanacağın növündən və istehsal olunan enerjinin hər kVt saatına sərf olunan yanacağın miqdarından asılıdır.

**Cədvəl 3**

**Ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldilən əsas kapitala investisiya qoyuluşu,** ***(min manat)***

| | **2000** | **2005** | **2007** | **2008** | **2009** | **2010** | **2011** |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | 1722,7 | 2912,3 | 55504,6 | 97885,5 | 105287,3 | 190007,2 | 239275,2 |
| O cümlədən:<br><br>Su ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi | 603,6 | 1309,8 | 18762,8 | 78830,2 | 89169,3 | 134936,9 | 189693,4 |
| Atmosferdəki havanın mühafizəsi | 825,9 | 1503,9 | 1091,8 | 929,6 | 2113,2 | - | - |
| Torpaqların mühafizəsi və səmərəli istifadəsi | 293,2 | 98,6 | 35650,0 | 18125,7 | 14004,8 | 55070,3 | 49581,8 |

***Qeyd:*** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.

İstilik elektrik stansiyalarının əksəriyyəti 50 ildən artıq fəaliyyət göstərdiyinə görə beynəlxalq tələblərə cavab vermir və onların rekonstruksiyasını qaçılmaz edir. Belə ki, İES-də istehsal olunan güc ilbəil artdığından ətraf mühitə təsir də uyğun olaraq artır.

Yeni stansiyalar layihələndirilən zaman onun bütün zəruri beynəlxalq tələblərə cavab verməsi üçün texnoloji məsələlər nəzərə alınmalı, ətraf mühit üzrə bütün normativlər dünya standartlarına uyğunlaşdırılmalıdır. Belə olduqda, yeni stansiyada hər kilovatt-saat üçün nəzərdə tutulan yanacağın həcmi hazırkı stansiyalarda olduğundan təxminən iki dəfə az olacaq ki, bu da ətraf mühitə təsirləri minimal səviyyəyə salacaq. Həmçinin, ərazidə istifadə olunan sular mexaniki və bioloji təmizləmə proseslərindən keçərək kanal vasitəsilə çaylara axıdılmalıdır ki, bu da suyun kimyəvi, bioloji və temperatur parametrlərinin dünya standartlarına uyğunluğunu təmin etməli və bu istiqamətdə nəzarətin gücləndirilməsi əsas kimi götürülməlidir. Kombinə edilmiş tsikllə işləyəcək yeni stansiyalarda əsas yanacaq kimi təbii qaz nəzərdə tutulmalıdır. AİB-in "Ətraf mühitin qorunması, sağlamlıq və təhlükəsizlik üzrə" hazırladıqları ekoloji proqramlar, Avropa Birliyi ölkələrində istilik elektrik stansiyalarının ətraf mühitə təsirlərinin qiymətləndirilməsi Azərbaycanda da həyata keçirilməlidir.

**Dissertasiya işinin sonunda əldə olunmuş bir sıra nəticə və təkliflər verilmişdir.**

- Adambaşına düşən ümumdaxili məhsulun xüsusi çəkisində ətraf mühitin çirkləndirilməsi ilə bağlı mənfi meyllər saxlanılmaqdadır. Çirkləndirməyə əsas payçı olaraq emal müəssisələri iştirak edirlər. Təbiəti mühafizə ödənişləri dəyən zərərin yalnız cüzi bir hissəsini kompensasiya etdiyindən, onun artırılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir.
- Müəssisələrdə təbiəti mühafizə fəaliyyətinin idarə edilməsinə kompleks yanaşmanın mövcud olmaması nəticəsində ətraf mühitin keyfiyyətinə nəzarət qeyri-qənaətbəxşdir ki, bu da ekoloji xərclərin effektivliyini əsaslı dərəcədə aşağı salır.
- Ətraf mühitə olan təsirlərin azaldılması ilə müəssisələrin ekoloji xərclərinin azaldılması tələbləri arasındakı əksliklərin artması, ekoloji-iqtisadi təhlillərin və təbiəti mühafizə idarə olunma sistemlərinin vəhdətini, iqtisadi metodları önə çəkilməklə, rasional istifadəyə əsaslanan metodologiyanın formalaşmasını tələb edir.
- Müəssisələrin ətraf mühitə texnogen təsirinin qiymətləndirilməsi zamanı ekoloji xərclərin təyin olunmasına təsir edən amillərin aşkara çıxarılması, sistemləşdirilməsi və qiymətləndirilməsi, müəssisələrin ekoeffektiv fəaliyyətinin qiymətləndirilməsi nəzərə alınmaqla ekoloji-iqtisadi

təhlilin aparılma metodikasının yaradılması, müəssisənin ekoloji xərclərinin azaldılmasına və bir sıra diqqətə layiq nəticələrin əldə olunmasına şərait yaradar:

- müəssisənin ekoloji təmizlik səviyyəsini təyin etməyə və onun ətraf mühitə təsirini formalaşdıran əsas amilləri aşkara çıxarmağa;
- ekoloji xərclərə ən çox təsir göstərən mühitin amillərinin vurğulanmasına;
- təbiəti mühafizə fəaliyyətinin iqtisadi səmərəsinin hesablanması ilə daha effektiv variantın seçilməsinə.

- Təbiəti mühafizə fəaliyyətinin kompleks idarə olunma sisteminin müəssisələrin ümumi idarə olunma sisteminə məqsədli alt sistem kimi daxil edilməsinin metodoloji əsasları müəyyənləşdirilmişdir. Burada müəssisəyə ekoloji və iqtisadi, iki alt sistemə malik vahid eko-iqtisadi sistem kimi baxılır. Bu sistemin formalaşmasının əsasları aşağıdakılardır:

- müəssisədə təbiəti mühafizə fəaliyyətinin idarə edilməsinə məqsədli kompleks yanaşılması;
- müəssisələrin bütün əsas bölmələri təbiəti mühafizə fəaliyyətinə cəlb olunaraq, onların fəaliyyətində eko-iqtisadi istiqamətin gücləndirilməsi;
- ekoloji xidmətin müəssisənin əsas koordinasiyaedici bölməsi kimi təyin olunması;
- istehsalın ekoeffektivliyini artırmaq üçün ekoloji-iqtisadi təhlillərin aparılması;
- bazar iqtisadiyyatına yönələn iqtisadi idarəetmə metodlarının gücləndirilməsi;
- ekoloji təsirlərin əhalinin sosial vəziyyətində yarada biləcək fəsadların aradan qaldırılması ilə bağlı tədbirlərin ön plana çəkilməsi.

- Regional səviyyədə ödənişlər sistemi ilə paralel olaraq, təsərrüfat fəaliyyətinin ekologiyasının iqtisadi stimullaşdırma sistemi yaradılmalı və fəaliyyət göstərməlidir. Belə sistemlər mənfəətə vergi güzəştləri, istehsalın təbiət tutumluluğunun azaldılmasına yönəldilən bütün fəaliyyət növləri, təbiəti mühafizə avadanlıqları istehsal edən müəssisələrə vergi güzəştlərinin tətbiqi, perspektivli ekoloji proqram və layihələrin güzəştli kreditləşməsi, az tullantılı texnologiyaların və yeni təbiəti mühafizə vasitələrinin tətbiq olunması, istehsala ekoloji nəzarətin yaxşılaşdırılmasına görə mükafatların verilməsi ola bilər.

- Ekoloji-iqtisadi baxımdan təbiət resurslarından istifadəyə görə ödəmə iqtisadiyyata regional və qlobal təsirin nəzərə alınması ilə həyata keçirilməlidir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap olunmuş əsərlərində öz əksini tapmışdır:**


1. T.N.Mehdiyev "Azərbaycanda regional tərəqqinin elmi-iqtisadi əsasları", AMEA aspirantlarının elmi konfransının materialları, Bakı, "Elm", 2005, səh.228-232
2. T.N.Mehdiyev "Heydər Əliyev irsi və Azərbaycanda sosial-iqtisadi inkişaf". "Heydər Əliyev irsi və Azərbaycan gəncliyi" konfransının materialları, Bakı, 2005, səh.138-140
3. T.N.Mehdiyev "Müstəil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf perspektivləri", "Azərbaycanın gələcəyi gənc alimlərin gözü ilə" konfransının materialları, Bakı, 2007, səh.45-53.
4. T.N.Mehdiyev "Azərbaycan Respublikasının dinamik inkişafında "Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı"nın rolu. AMEA aspirantlarının elmi konfransının materialları, Bakı, "Elm", 2008, səh.454-459.
5. Т.Н.Мехтиев "Развитие экономики и пути улучшение экологических процессов в Азербайджанской Республике", Ж. «Вестник профессионального бухгалтера», №4-6(103-105), стр. 38-47, Самара, 2009г.
6. В.Т.Новрузов, Т.Н.Мехтиев "Управление и организация природоохранной деятельности на предприятиях", «İqtisadiyyat və həyat», Bakı, 2009, №6-7, səh. 42-49.
7. Т.Н.Мехтиев "Основные аспекты устойчивого развития Азербайджанской Республики". Международный журнал «Альтернативная энергетика и экология», Саров, 2009, №9, стр.156-163.
8. T.N.Mehdiyev "Ekoloji proqramların maliyyələşdirilməsinin aktual məsələləri". "Böhrandan sonrakı iqtisadiyyatda maliyyə resurslarının səmərəli idarə olunmasında şəffaflığın rolu" Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 16-17 oktyabr 2009, səh. 282-287.
9. Т.Н.Мехтиев Состояние и пути улучшения экологической обстановки в Азербайджанской Республике, İqtisadiyyat və audit, Bakı, 2009, №9 (111), səh.33-37.
10. T.N.Mehdiyev. Azərbaycan Respublikasının alternativ enerji mənbələri, onların ekoloji təsirinin və iqtisadi səmərəsinin qiymətləndirilməsi. "Alter-

nativ və bərpa olunan enerji mənbələrindən istifadənin perspektivləri" Respublika konfransının materialları, 1-2 iyun 2011, səh.16-17.
11.T.N.Mehdiyev Energetikanın inkişafının texniki-iqtisadi və ekoloji problemləri. "Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi perspektivləri" Beynəlxalq konfransın materialları, 23-25 noyabr, 2011, səh.133-135.
12.V.T.Novruzov, T.N.Mehdiyev "Azərbaycanın regionlarında iqtisadi-ekoloji proseslərin yaxşılaşdırılması yolları". AMEA Məruzələr, Cild LXVIII, 2012, №1, səh.113-121.
13.T.N.Mehdiyev "Azərbaycan Respublikasının elektrik enerji istehsalı sektoru və onun ekoloji-iqtisadi problemləri". AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2012, №2, səh.133-139.
14.Т.Н.Мехтиев "Эколого-экономическая эффективность регионального природопользования". Ж. Экономика и управление, Уфа, 2012, №3, стр.109-114.
15.T.N.Mehdiyev "Regional ekoloji-iqtisadi tədqiqatlara müasir elmi baxışlar", AMEA Gənclərin İntellektual İnkişaf Mərkəzi, AR Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti, Gənc alimlərin əsərləri, Bakı, 2013, №7, səh.337-346.

**ТЕЙМУР НИЗАМИ оглы МЕХТИЕВ**

# ОЦЕНКА ЭКОЛОГО-ЭКОНОМИЧЕСКИХ ПРОЦЕССОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

Работа посвящена исследованию основных системных мер, необходимых для улучшения экологического состояния в республике. В рамках концепции устойчивого экономического развития использована методика эколого-экономического анализа и методологических основ формирования системы управления природоохранной деятельности, которая актуальна на современном этапе развития как для регионов, так и республики в целом и является основной целью научных исследований.

Экспериментальные исследования теоретических и методологических основ создают единое целое и дополняют друг друга. Исследование данной проблемы с точки зрения экономической науки и ее уровень развития характеризуется в мире наличием системного подхода и различных методологических взглядов и принципов. В оценке эколого-экономической ситуации для повышения целесообразности предлагается использовать многовариантные системы с последующим выбором оптимального варианта. При этом создаются условия, необходимые для интеграции эколого-экономических процессов в регионе, что даст возможность систематизировать варианты по критериям. Это позволяет на основе современных научных взглядов выбрать в регионах направления социально-экономического развития и показать эффективную деятельность предприятий. В работе показано, что если разделить главные экономические и социальные цели, то возможно создать три целевые программы для каждого из регионов республики, предположив «древо целей».

В заключении исследования обобщены выводы и предложения.

**TEYMUR NIZAMI MEHDIYEV**

## ESTIMATION OF ECOLOGICAL-ECONOMICAL PROCESSES IN THE REGIONS OF AZERBAIJAN REPUBLIC

### SUMMARY

The thesis is devoted to research of system of measures important for normalizing ecological status in the Republic. In the thesis ecological state has been analyzed in different regions, ecological situation has been valued, and in order to carry the current situation more completely and visually, to show the level of environmental risk damaging facilities and environment, the problem has been approached as a separate establishment and estimations have been carried out. In the work there is a unity of experimental studies and theoretical-methodological basis and they complement each other. In the work it has been studied theoretical and methodological basis of ecological-economic problems, revealed the study level of the problem in world economy science, features of scientists' systematic approach to the problem, different methodical views and their principles have been explained. Basing on the principle of optimality in the evaluation of the ecological-economic state, it is offered use expediency of multiversion system in defining ecological state of the area and for improving this state, so that the selected most optimal version creates conditions for the integration of subject and economic-ecological processes in the region, and allows systematizing the requirements to criteria of versions evaluation. In this work it has been analysed methodological approach to the selection of socio-economic development direction on the basis of modern scientific views at regional ecological-economic studies and has been investigated the organization and conducting methods of nature protection activity in enterprises.

In the work by suggesting a system called "tree of objectives" that allows to set 3 target program, dividing set of problems into 3 - ecological, economical and social head objectives which appear as a result of each region's use level of its natural resources and their influence on the environment, the structure of this "tree" in the territory of the regions is explained and given its evaluation indicators and calculation formula in order to define the achievement degree of the aim. In conclusion the main and overall results of the research has been given.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

***На правах рукописи***

**ТЕЙМУР НИЗАМИ оглы МЕХТИЕВ**

# ОЦЕНКА ЭКОЛОГО-ЭКОНОМИЧЕСКИХ ПРОЦЕССОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5312.01- Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ-2013**